# Ayrumlar

Səlcuqlar bir sıra tayfalara bölünmüşlər və bunlardan bir çoxları Monqol hücumu dövründə onlara boyun əymək istəməyib, Kiçik Asiyaya çıxıb getmiş və oradan sonralar müxtəlif çağlarda Azərbaycana gəlmişdilər, bir bölümü isə Monqollar çağında da Azərbaycanda qalmışdı. Səlcuq tayfaları indi də Ayrum, Şamlı, Bəydilli, İnallı, Təklə, Qaramanlı, Əhmədli, Aydınlı, İmirli, Düxər və b. Adlarla ünlüdür.

Rumdan (Anadoludan) gəlmiş oymaq — Ayrumlar, yaxud daha doğrusunu desək, Elrumlar 1301-ci ildə Konya sultanlığının — Səlcuqların süqutundan sonra Azərbaycanda yurd salmış, Gəncə və Qarabağ bölgələrini tutmuşlar. Sonralar, yəni, XVI yüzilliyin sonlarında Ayrumlar burada iki bölüyə bölünmüşdülər. Bir bölümü İran Azərbaycanına getmiş və burada Şah Abbasdan «Şahsevənlər», yəni, «şahın sevimliləri» adını almışdı, o biri bölümü isə — Ayrumlar, Saatlı, Axsaqlı, yaxud Çolaqlı və b. Burada qalmışdılar.

Ayrumlar öz tirələri ilə birlikdə Azərbaycanda aşağıdakı kimi yerləşmişlər:

Cavanşir qəzasında — Ayrumlar, Saatlı;

Qazax qəzasında — Bağanıs-Ayrım, Polad Ayrım, Şınıx-Ayrım;

Cavad qəzasında — Saatlı;

Lənkəran qəzasında — Axsaqlı;

Nuxa qəzasında — Çolaqlı.

İran Azərbaycanına gələn Ayrumlar, Şahsevənlər adı ilə Ərdəbil əyalətində yerləşmişlər. Buradan sonralar Qafqas Azərbaycanının hüdudlarına keçmiş və öncə Muğanda, sonra isə bütün ölkədə kök salmışlar.

---

**Məhəmmədhəsən bəy Vəlili-Baharlı — *“Azərbaycan” (Fiziki-coğrafi, etnoqrafik və iqtisadi oçerk)***

**© ATB — Azərbaycan Türkçülər Birliyi**